İPƏK YOLU, No.1, 2023, səh.144-149

# TÜRK XALQ QƏHRƏMANLIQ DASTANLARINDA ADVERMƏ MOTİVİNİN RİTUAL-MİFOLOJİ ƏSASLARI

**Jalə Xəlilli**

AMEA Folklor İnstitutu, Bakı, Azərbaycan
e-mail: xelillij@mail.ru

**Xülasə.** Məqalədə ad vermə ilə qəhrəmanın sosial statusunun hansı istiqamətdə dəyişməsi öyrənilir və ad verənin kimliyi ilə yanaşı bu prosesin icrasında xanın iradəsi dastanlardan verilən nümunələr əsasında araşdırılır. Göstərilir ki, ad vermə türk dastanlarında müşahidə edilən motivlərdən biridir və fərdin şəxsiyyət kimi formalaşmasının ifadəsi olmaqla yanaşı, ad vermə mistik gücün də ifadəsidir.

**Açar sözlər**: Dastan, ad vermə, xan statusu, motivi, qəhrəman.

**RITUAL-MYTHOLOGICAL BASIS OF NAMING MOTIVE IN TURKISH FOLK HEROIC EPICS**

**Jala Khalilli**
*Institute of Folklore ANAS, Baku, Azerbaijan*

**Abstract**. In the article, the change of the social status of the hero with naming and the identity of the person giving the name, as well as the will of the khan in the implementation of this process, are investigated on the basis of the examples given in the epics. It is shown that naming is one of the motifs observed in Turkic epics, and besides being an expression of the formation of an individual as a personality, naming is also an expression of mystical power.
**Keywords**: saga, naming, khan status, motive, hero.

**РИТУАЛЬНО-МИФОЛОГИЧЕСКАЯ ОСНОВА НАЗВАНИЯ МОТИВА В ТУРЕЦКОМ НАРОДНОМ ГЕРОИЧЕСКОМ ЭПОСЕ**

**Жаля Халилли**
*Институт Фольклора НАНА, Баку, Азербайджан*

**Резюме.** В статье исследуется, в какую сторону меняется социальный статус героя при имянаречении и исследуется воля хана в осуществлении этого процесса наряду с личностью имядарителя на примерах, приведенных в былинах. Показано, что имянаречение является одним из мотивов, наблюдаемых в тюркских эпосах, и помимо того, что оно является выражением становления индивида как личности, имянаречение является еще и выражением мистической силы.
**Ключевые слова:** сага, именование, ханство, мотив, герой.

## 1. Giriş

Türk xalqlarının qədim inanclarına görə dünya sözlə yəni adlandırma ilə yaranmışdır. Dünyada mövcud olan hər şeyə ad verildikdən sonra anlam qazanmışdır. Məsələn, Sayan-Altay türklərinin qədim inancına görə dünyada hər şey kar və səssiz olanda, yer-göy deyə bir şey olmayanda su ilə örtülmüş bu sonsuz dünya ilk dəfə adla yaradılmışdır [1, s.21].

Qədim türklərin bu inancı bənzər şəkildə İslam dinində də öz əksini tapmışdır. Əl Bəqərə surəsinin 31, 32, 33-cü ayətlərində hər şeyin adının necə verildiyi göstərilmişdir. Ayətə görə Allah hər şeyin adını Adəmə öyrətmişdir. Adəm də mələklərə onların adını bildirmişdir.

*Allah Adəmə hər şeyin adını öyrətdi. Sonra onları mələklərə göstərərək: “Əgər doğru deyirsinizsə, bunların adlarını Mənə bildirin!” – dedi.*

*Mələklər dedi: "Sən bütün nöqsanlardan uzaqsan! Biz Sənin bizə öyrətdiklərindən başqa heç bir şey bilmirik. Şübhəsiz ki, Sən hər şeyi bilənsən, hikmət sahibisən!"*

*Allah dedi: "Ey Adəm, bunların adlarını onlara bildir!" Adəm mələklərə onların adlarını bildirdiyi zaman Allah dedi: "Sizə demədimmi ki, Mən göylərin və yerin qeybini, eləcə də sizin gizlətdiklərinizi və aşkar etdiklərinizi bilirəm?!"*

Türk xalq qəhrəmanlıq dastanlarında da bu inancların izlərinə rast gəlinir. Belə ki, "Kitabi Dədə Qorqud" dastanında dünyada hər şeyə adı Qorqud ata vermişdir. Hər şeyə ad qoymaq Qorqud atanı demiurq – Tanrı oğlu səviyyəsinə qaldırır. Əslində hər şeyi bilən, müdrik, kultun aparıcısı Qorqud Ata funksiyası və daşıdığı missiya baxımından Tanrı oğludur. (KDQ ensiklopediyası) Və beləliklə burada da İslam dini inancında olduğu kimi Tanrının buyruğu ilə hər şeyə adı Qorqud ata vermişdir.

Adın verilməsi ilə reallığın, yəni varlığın söz, adla yaradıldığına inam ifadə edilmişdir. "Söz" yaradılışın əsas tərkib hissəsi kimi önə çıxır. Yəni, əşyalar və şəxslər adlandırıldıqdan sonra varlıqları kainatda anlam qazanır. Adlanana qədər varlıq xaos vəziyyətində olur, varlığı cəmiyyətə naməlum qalır. Bununla yanaşı dastanlarda adlanma kimliyin cəmiyyətə məlum olması ilə yanaşı onun statusu da müəyyənləşir. Qəhrəman sosial-ierarxik strukturda semiotik məna qazanaraq elin/obanın xanı/bəyi kimi həyatına başlayır.

Ad almanın bu qədər anlam daşıdığı toplumda əlbəttə ki, ad verən şəxsin kimliyi də önəm təşkil edir. Qeyd etdiyimiz kimi adı verən şəxs tanrının iradəsinin göstəricisi olduğunu ifadə edə biləcək şəxs olmalıdır. Belə şəxs kimi dərviş, ağsaqqal, dədə, pir, peyğəmbər, Xızır dastanlarda öz əksini tapır. Lakin burada övladı diləyən, qurbanlar verən, seçilmiş varisə sahib olmaq niyyəti ilə toy qurub ad verən xan atanın rolu inkar edilə bilməz. Çünki advermə xan statusunun göstəricisi kimi meydana çıxır. Bu ritual kodeksi olaraq mətnlərdə müşahidə olunur. Təbiidir ki, araşdırma bu istiqamətdə aparılacaqdır.

## 2. Qəhrəmanın sosial-ierarxik strukturda semiotik məna qazanması

Dastanlarda adın insanın taleyi ilə birbaşa bağlılığı mövcuddur. Bu inancın nəticəsi olaraq dastanlarda ad verilərkən elin xanı/bəyi olan ata adın verilməsi münasibəti ilə toy təşkil edər və elin ağsaqqalı, müdrik qocası və ya dərvişi gəlib adı verərdi. Bu da təsadüfi fəaliyyət aktı olmayıb, özünəməxsus magik əhəmiyyət daşıyır. Ad vasitəsi ilə qəhrəman adının olmadığı qeyri-müəyyənlikdən, xaosdan kosmosa keçir.

Övladvermə də advermə kimi eyni semiotik vahiddir. Yəni övladvermə xaos situasiyasının aradan qalxmasına xidmət etdiyi kimi, advermə də yoxluqdan varlığa, qeyri-müəyyənlikdən müəyyənliyə keçidi təmin edir [4, s.119]. Bununla yanaşı ad almaqla qəhrəmanın statusu, cəmiyyətdə mövqeyi də dəyişmiş olur. Qəhrəmanlar ad aldıqdan sonra sosial-ierarxik strukturda semiotik məna qazanmış olurlar.

Buna misal olaraq, "Manas" dastanının ikinci hissəsi olan "Semetey"də, Kanıkey yeddi aylıq hamilə olan zaman Manas ölür. Adətə görə dul qalan qadının oğlan övlad sahibi deyilsə qayınlarından biri ilə evlənməlidir. Çakıp xan gəlini Kanıkeyə qayınlarından biri ilə evlənməsi

haqqında xəbəri verir. Kanıkey isə övladı dünyaya gəldikdən sonra uşaq qız olarsa evlənəcəyin, oğlan olarsa evlənməyəcəyin bildirir. Kanıkeyin oğlan övladı dünyaya gəlir və bununla da babanın və əmilərin taxtı təhlükə altına düşür. Onlar da çarəni uşağı öldürməkdə görürlər. Vəziyyəti belə görən Kanıkey və Manasın anası Baybiçə uşağı xilas etmək üçün qaçır və Kanıkeyin atası Qara xana sığınırlar. Qara xan onlara sahib çıxır və nəvəsinə ad vermək üçün toy təşkil edir. Axşama kimi uşağa ad tapa bilmirlər. Axşam ağsaqqal qoca peyda olur və uşağa Semetey adın verir [5, s. 207].

Dastanın məzmunundan göründüyü kimi övladın mövcudluğu taxtın, xalqın taleyinin qeyri-müəyyənlikdən müəyyənliyə keçməsinə, Semeteyin ad alması isə qəhrəmanın özünün qeyri-müəyyənlikdən müəyyənliyə keçərək taxt sahibi kimi varlığının məna qazanmasına səbəb olur.

Semeteyin də adın atası kimi qəfil peyda olan ağsaqqal cildində ilahi varlıq verir, sıradan insan verə bilmir. Bunun mənası onun tanrı tərəfindən seçilmiş bir xan/bəy olması deməkdir.

Dastanın "Seytek" adlı hissəsində atası Semeteyin tale motivi oğlu Seytekdə müşahidə edilir. Belə ki, Semetey öləndə Ay Çörök altı aylıq hamilə idi. Ay Çörök Semeteyin düşməni Kıyasla evlənmək məcburiyyətində qalır. Övladın qorumaq üçün Kıyasa uşağın onun da oğlu sayıldığın deyərək aldadır. Bundan sonra Kıyas uşağa ad verilməsi üçün toy təşkil edir. Lakin, heç kim uşağa ad verməyə ürək etmir. Axşam göydən Ak Boz gəlir və uşağa Seytek adın verərək yox olur. Burada da adın verilməsi və onun tanrı tərəfindən seçilmiş xan olması eyni anlayışı ifadə edir [5, s.267].

Qazax qəhrəmanlıq dastanı olan "Munlık-Zarlık" da Şanşar adlı xanın övladsızlığı, taxtına varis olmamasını dərt etməsindən bəhs edir. Şanşar xan övlad sahibi olmaq üçün altmış qadınla evlənmiş amma övlad sahibi olmamışdır. Altmış yaşına gəldiyində övladsızlıq üzüntüsü ilə elini tərk edərək uzun bir yola çıxır. Yorulub bir yerə uzanır və orda ağlayaraq öləcəyin güman edir. Bu zaman həzrəti Xızır gəlir ona evinə getməsini, xalqının içindən gözəl bir qız seçərək evlənməsini, bu evlilikdən bir oğlu, bir qızının olacağını bildirir. Xan bunu duyub sevinərək elinə gəlir və vəziri vasitəsilə bir gözəl qız tapıb evlənir. Lakin, bu evlilikdən övladı dünyaya gəlmir. Çarəsizliyə düçar olan xan artıq yetmiş yaşına gəlmişdi. Övlad sahibi olmadan öləcəyini düşünərək dərd çəkir. Xan bir daha vəzirə ona bir oğlan, bir qız övladı dünyaya gətirə biləcək biri ilə evlənmək istədiyini xalqa bildirməsini istəyir. Bunu duyan yaşlı Elkıssa qızı Kanşayımı xana vermək niyyətinə düşür.

Dastanda diqqət çəkən məqamlardan biri Elkıssanın xandan qızının qarşılığında başlıq parası istəməsidir. Qız atasına əlindəki torbaya yerləşəcək qədər dilla (pul vahidi) isətmisini söyləyir. Torba o qədər kiçik idi ki, xan ora üç dillanın yerləşə biləcəyini görüb bundan böyük torbasının olmadığını soruşur. Amma torbaya dilla doldurulduğunda dolmadığını görürlər. Xanın yeddi oda dolusu dillası belə torbanı doldurmur. Daha sonra buna çarə aramaq üçün qoca qarını çağırırlar. Qoca qarı torbaya torpaq doldurur və torba dolur. Elkıssa qızını xana verərək yeddi dəvəyə torbadakı paranı yükləyib gedir.

Övlad sahibi olmaq üçün dastanlarda təsvir olunan ənənəvi süjetlərdən qurban kəsmə, nəzir vermə burada görünür ki, bu şəkildə icra edilmişdir.

İllər aylar ötür və xanın bir oğlu, bir qızı dünyaya gəlir. Lakin, xanın altmış xanımı cadugər qarı vasitəsilə uşaqları oğurladıb yerinə köpək qoyurlar. Qadınlar qarıya uşaqları öldürməyi tapşırırlar lakin, qarı uşaqları öldürə bilmir və uşaqları çaya atır. Bu sırada cırtdanlar uşaqlar suya düşmədən xilas edirlər və Şögirli dağına aparırlar. Onlara daşdan bir ev tikib analıq etməsi üçün içinə maral qoyurlar [2, 135-229].

Ķudireti küşti Ķudayım,
Tavdan alma jegizip,
Kiyikti ana degizip,
Kiyik jürdi üş mezgil,
Balasınday emizip [2, s.370].

Dastanda ad vermə motivi bu sırada icra edilir. Belə ki, insan ayağı basmayan Şögirli dağında uşaqlara ad birbaşa tanrının buyruğu ilə Xızır İlyas tərəfindən oğlana Zarlık, qıza isə Munlik adı verilir.

Ad vermə motivi "KitabiDədə Qorqud" dastanında ifadə edildiyi kimi "Ol zamanda bir oğlan baş kəsməsə qan tökməsə ad qoymazlar- idi" uşağın ad alıb cəmiyyətdə varlığının təsdiqi üçün onun hər hansı qəhrəmanlıq göstərməsi lazım gəlmişdir.

"Zalık və Munlik" dastanında da uşaqların ad alması onların qeyri-adi gücə, qüdrətə malik olmalarının, ad alıb bəylik/xanlıq edə biləcəklərinin sübutu kimi başlarına gələn min bir bəladan sağ çıxmaları və qarının uşaqları öldürmək istəyərkən oğlan uşağının dilə gəlməsini göstərmək olar. Bütün bunlar onların ad alaraq xan/bəy ola bilmə kimliyinə sahib olduqlarının göstəricisidir.

### 3. Advermə motivi xan statusunun göstəricisi kimi

Dastanlarda ad müdrik qoca arxetipinin məhsulu kimi olsa da, bu prosedurun icrası məhz xan tərəfindən aparılır. Çünki advermə xan statusunun göstəricisi kimi meydana çıxır.

Bu ritual kodeksi "Kitabi Dədə Qorqud" dastanında aydın müşahidə edirik. Belə ki, dastanın bir çox boylarında məhz advermədən sonra qəhrəmana xan tərəfindən mal-mülk, bəylik verilir.

Eposun ilk boyu olan "Dirsə xan oğlı Buğac xan boyını bəyan edər, xanım, hey" övlada görə sosial statusu müəyyənləşdirən ritualla başlayır. Belə ki, qız övladı olan qırmızı çadıra, oğlu olan ağ çadıra, övladsız isə qara çadıra yerləşdirilir. Qara çadıra salınan Dirsə xan bundan sonra xatununun məsləhəti ilə ulu toy edir, qurbanlar kəsdirir və nəticədə övladı dünyaya gəlir.

Oğlanın dünyaya gəldikdən sonra on beş yaşına kimi adsızlıq yəni ərgənlik dönəmi olur. Bu dönəm oğlanın aşıq oynayarkən üzərinə hücum edən Bayandır xanın buğası ilə vuruşub onu öldürməsi ilə yekunlaşır. Oğuz bəyləri yığışır və Dədə Qorqud gəlib igidə ad qoyur, atasından bəylik və taxt alır [3, s.132-134].

Beləliklə Buğac ərgənlik dönəmindən  keçərək yeni status bəy/xan statusu alır. Bütün bunlar əslində şəxsin müdrik rəhbər olmasını sınağa çəkən hazırlıq rituallarıdır. Bundan başqa, bu ritualların təşkilatçısı Bayandır xandır. Əgər ad müdrik qoca arxetipinin məhsuludursa (Dədə Qorqud və s), ancaq bu prosedurun icrası məhz xan tərərəfindən icra olunur. Onun tapşırığı ilə toy təşkil edilir, bəylər müvafiq çadırlara yerləşdirilir.

Bunları təşkil etməkdə əsas məqsədi əlbəttə xanlar-xanının elin gələcəyini düşünməsidir. Soyun davamediciliyini qorumaq məqsədi daşıyır. Belə ki, Bayandır xan Dirsə xanın bəylik etdiyi elin taleyini düşünərək xandan sonra taxta layiqli şəxsin namizədliyinin seçilməsini təmin edir.

Ümumiyyətlə, dastanlarda adların verilməsi əsasən xan/bəy övladlarında müşahidə edilir. Çünki advermə ilə xanın/bəyin taxtına oturacaq soyun davamedicisi müəyyənləşir.

Qırğız türk xalq qəhrəmanlıq dastanı olan “Manas”da Çakıp xanın övladsızlığı, yəni O, xaos vəziyyətində təsvir edilir. Bu xaosun səbəbi ondan sonra taxta oturacaq, elə-obaya sahib çıxacaq davamçısının olmamasıdır. Bundan başqa qırğız xalqı çin xanı Esen xanın zülmünə məruz qalırdı. Bütün xalq ayaqlar altında qalan bayraqlarını qaldıracaq, itirdikləri torpaqları geri alacaq, intiqamlarını ala biləcək körpənin dünyaya gəlməsini Tanrıdan diləyirdi. Dualar, alqışlar sonucu Çakıp xan ixtiyar çağında övlad sahibi olur. Övlad sahibi olduqdan sonra Çakıp xan böyük bir ziyafət verərək tanrının bu lütfünə elin müdrik ağsaqqallarından ad verilməsin istəyir. Lakin, uşaqdan yayılan işığa baxıb ona layiq bir ad tapa bilmirlər. Bu zaman dərisi yırtılmış əlbisə geyinən, əlində bəyaz asa tutan, bəmbəyaz saqqalı, ağ külahlı dərviş çadıra girir və uşağa ad verməsi üçün icazə istəyir. İcazə aldıqdan sonra onun istəyi üzərinə uşağa Manas adı verilir [6, s.20-25]. Göründüyü kimi xan/bəy atanın istəyi üzərinə uşağa ad verilərək taxta sahib seçilir.

Beləliklə, adın seçilməsin və verilməsin ağsaqqal, dərviş, Xızır peyğəmbər və başqaları icra etsə də adın verilməsi mərasimi xan atanın izni ilə aparılır və taxtın sahibi təyin edilir. Eyni zamanda qəhrəmanın xan/bəy statusu müəyyənləşir.

**Nəticə.** Türk xalq qəhrəmanlıq dastanlarında uşağın dünyaya gəlməsi kimi ona ad verilməsi də bir o qədər önəm kəsb etmişdir. Adın verilməsi ilə qəhrəmanın bir şəxsiyyət kimi cəmiyyətin parçası olmaq yolunda ilk addımı atılmış olur. Eyni zamanda ad vermənin mistik-mənəvi yönü ilə yanaşı qəhrəmana sosial status qazandırdığı da aydın məsələdir. Xüsusilə, idarəedici sinfə məxsus olan qəhrəmanlar ad almaqla atalarından sonra sahib olacaqları xan/bəy statusunun daşıyıcısı kimi seçilmiş olurlar. Bu səbəbdən də ad verilərkən onların adla bərabər bu sosial statusu daşımağa hazır olmaları sınağa çəkilir. Bu sınaqlar onların doğuşdan mistik gücə sahib olmaları və ya hər hansı qəhrəmanlıq göstərmələri hesab olunur. Çünki onlar hər zaman xalqını hər cür təhlükəyə qarşı qoruya biləcək cəsarətə, qabiliyyətə sahib olmalıdırlar. Beləliklə, onlar idarəedici statusla bərabər alp kateqoriyasına da daxil olurlar.

Ad verməni adətən dastanlarda dədə, pir, dərviş, elin ağsaqqlı,peyğəmbər, Xızır kimi şəxslər icra edir. Lakin, ad verilərkən qəhrəmanın sosial statusu bəlli olması etibarilə bu aktın

icrası bir başa xan/bəy atanın istəyinin sonucudur. Çünki, o özündən sonra xalqının taleyini düşünmə yükü ilə hökmlüdür. Bu səbəbdən də övladın dünyaya gəlməsi xanın diləyinin sonucu kimi dastanlarda təsvir edilir. Bundan başqa övladsız bəylərin taleyini düşünmək də xanlar xanına qalır. Onların övlad sahibi olması üçün rituallar icra etdirir. Övlad sahibi olduqlarından sonra da onların adının verilməsi münasibətilə toy təşkil edir.

Nəticə etibarilə advermə motivinin təsadüfi motiv kimi mətnlərdə yer almadığı, məhz xan statusunun göstəricisi kimi səciyyələnir. Əgər ad müdrik qoca arxetipinin məhsuludursa, ancaq bu prosedurun icrası məhz xan tərərəfindən icra olunur.. Çünki advermə ilə qəhrəman sosial-ierarxik strukturda semiotik məna qazanır və bu akt xan statusunun göstəricisi kimi meydana çıxır.

## Ədəbiyyat

1. Beydilli C., (2004), "Dağ Md." Türk Mitolojisi Ansiklopedik Sözlük Çev. Eren Ercan, Ankara: Yurt Kitap-Yayın
2. Güler D.Ö., (2022), Kazak kahramanlık destanları, Çanakkale, Araştırma İnceleme Bilişim, 413 s.
3. Kitabi-Dədə Qorqud, (1988), Bakı, Yazıçı, 263 s.
4. Quliyev H., (2016), Müdrik qoca arxetipinin semantik strukturu və paradiqmaları, Bakı, Elm və təhsil, 215 s.
5. Wilhelim R., Yayına hazırlayan: Emine Gürsoy-Naskali., (1995) Manas destanı, Ankara, Kamer, 286 s.
6. Yusupev K., Adil C., (2009), Manas dastanı, Bakı, Nurlan, 290 s.